*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   13 oktyabr 2018-ci il   № 79 (2295)   Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir

### Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

*Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda Prezident İlham Əliyev əsas prioritet istiqamətlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə və ordu quruculuğu məsələlərinə də toxunub.*



- Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqeyimizi daha da möhkəmləndirir.

Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnikanı, silahları almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərlə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Bu il Bakıda üçüncü müdafiə sənayesi sərgisi uğurla keçirilmişdir. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirmişlər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# "İki ölkə beynəlxalq diplomatiyanın köməyi ilə bu problemin müharibəsiz həllini tapa bilərdi"

Dağlıq Qarabağ problemi çox mürəkkəbdir, bu səbəbdən də 30 ildir ki, həll olunmur.

Ukraynanın sabiq prezidenti (1994-2005-ci illər) Leonid Kuçma bu fikri AZƏRTAC-a eksklüziv müsahibəsində bildirib.

Ukraynanın sabiq prezidentinin sözlərinə görə, o, Ukraynaya dair Minsk danışıqlar prosesi çərçivəsində müsahibələrində bu mənfi nümunəni tez-tez yada salır.

L.Kuçma hesab edir ki, Azərbaycan ilə Ermənistan arasındakı dondurulmuş münaqişə kimlərəsə çox sərf edir: "İnanıram ki, əgər belə olmasaydı, iki ölkə beynəlxalq diplomatiyanın köməyi ilə bu problemin müharibəsiz həllini tapa bilərdi. Bu, ədalətli həll olmasa da, ən azı konsensusa əsaslanan - sülhə aparan həll olardı".

# Monitorinq insidentsiz başa çatıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 10-da Goranboy rayonu istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

# Müdafiə naziri Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bütün hərbi hissələrində şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, oktyabrın 10-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Respublikası Prezidentinin ölkəmizin qida təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirlər və bu istiqamətdə normativ-hüquqi aktların tələblərinə uyğun olaraq yeni inşa olunan Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının açılışında iştirak edib.



Məlumat verilib ki, ən müasir texniki avadanlıqlarla təchiz edilmiş laboratoriyada qida təhlükəsizliyinə nəzarət dövlət standartlarına, normativ texniki və digər rəhbəredici sənədlərin tələblərinə uyğun olaraq həyata keçirilir. Laboratoriyada Azərbaycan Ordusunun şəxsi heyəti üçün tədarük edilən bitki, heyvan və qeyri-üzvi mənşəli ərzaq məsullarının müayinəsi aparılır. Xüsusi ayrılmış otaqlarında qida məhsullarının fiziki-kimyəvi, bakterioloji, radioloji və toksikoloji müayinəsi həyata keçirilir, ərzağın tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edilir.

Məruzə olunub ki, burada çalışan şəxsi heyətin normal fəaliyyəti və rahat istirahəti üçün də ərazidə şərait yaradılıb.

Sonra Müdafiə naziri Mərkəzi Əşya Bazası və Mərkəzi Ərzaq Anbarları ərazisində yeni inşa edilmiş saxlanclara da baxış keçirib. Qeyd edək ki, bu növ bazalar cəbhəboyu zonada da fəaliyyət göstərir və müxtəlif istiqamətlərdə yerləşən hərbi hissələrin şəxsi heyətinin təminatını tam ödəyir.



Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyəti üçün nəzərdə tutulmuş ərzaq və əşya əmlakının etalon nümunələrinə baxıb, burada nümayiş etdirilən məhsulların, eləcə də bütün növ geyim formalarının rahatlığı, keyfiyyəti və davamlığı ilə də maraqlanaraq müvafiq göstərişlər verib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*12 oktyabr 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Latviyanın Xarici İşlər naziri BMT Baş Məclisinin sessiyasında Azərbaycanın ərazi bütövlüyünə dair fikir bildirib

*Latviya Respublikasının Xarici İşlər naziri Edqars Rinkeviçs Nyu-Yorkda BMT Baş Məclisinin 73-cü sessiyasında çıxışı zamanı Azərbaycanın ərazi bütövlüyünə dair fikir bildirib.*

Nazir Latviyanın beynəlxalq ictimaiyyətlə birlikdə Krımın anneksiyasının tanınmaması siyasətinə sadiq qaldığını deyib, beynəlxalq hüququn normaları və ədalət bərqərar olmaqla Ukraynanın, həmçinin Avropa İttifaqının digər Şərq tərəfdaşlarının ərazi bütövlüklərinin bərpa ediləcəyinə inandığını vurğulayıb.

Analoji münaqişələrə məruz qalmış ərazilərin adlarını sadalayan Edqars Rinkeviçs qeyd edib ki, BMT digər aidiyyəti regional iştirakçılarla birlikdə Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya və Cənubi Osetiyada uzunçəkən münaqişələrin həlli prosesinə daim cəlb olunmalı və sadiqlik göstərməlidir.

Latviya XİN-in rəhbəri çıxışında bütün ölkələrin beynəlxalq standartlardan kənar qalmadan bir-birilərinin təhlükəsizliyini təmin etməli olduqlarını deyib. "BMT-nin preventiv fəaliyyətinin əsas məqsədi davamlı inkişafın təminatı olmalıdır. Bu halda qeyri-sabitlik və münaqişələrin ilkin səbəbləri aradan qaldırılacaq. Məqsədimiz insan ləyaqətinin müdafiəsi, yoxsulluğun aradan qaldırılması, iqtisadi əməkdaşlıq və sosial inkişaf tədbirlərinin davamıdır", - deyə Edqars Rinkeviçs vurğulayıb.

**AZƏRTAC**

# Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib

*Daşkənddə keçiriləcək Müstəqil Dövlətlər Birliyi Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün Özbəkistanda səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müdafiə naziri general-mayor Abdusalom Azizov ilə görüşüb.*



Özbəkistanın Müdafiə naziri hər iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlığın daha da inkişafında maraqlı olduqlarını bildirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə müdafiə və hərbi təhsil sahəsində birgə əməkdaşlığın indiki vəziyyəti və perspektivləri ilə bağlı bir sıra məsələlər müzakirə olunub, hərbi-texniki istiqamətdə qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsi üzrə geniş fikir mübadiləsi aparılıb.

Bildirilib ki, Özbəkistan hərbi təhsil sahəsində təcrübə mübadiləsi ilə bağlı Azərbaycanla birgə tədbirlər keçirilməsini planlaşdırır. Söhbət zamanı qeyd olunub ki, Özbəkistanın hərbi mütəxəssisləri Azərbaycan ərazisində keçirilən beynəlxalq təlimlərdə müşahidəçi kimi iştirak edəcəklər.

Görüşün sonunda Azərbaycanın və Özbəkistanın müdafiə nazirlikləri arasında 2019-cu il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.



* * *

Oktyabrın 12-də Özbəkistan Respublikasının Daşkənd şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.

İclasdan Müdafiə nazirləri cari hərbi əməkdaşlıq və qarşıda duran məsələləri müzakirə ediblər.

Döyüş hazırlığı

# Düşmənin istənilən hədəfi məhv ediləcək

*Bu yaxınlarda həmkarımla birgə ön xətdə yerləşən hərbi hissələrin birində olduq. Dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə, dağlıq ərazidə yerləşən bölmələrdə qış aylarında hava çox sərt keçir. Baxmayaraq ki, payız fəsli həyatımıza yenicə qədəm qoyub, artıq buralarda qışın əlamətləri hiss olunurdu.*

Hərbi hissədə əvvəlcə mayor Fariz Hüseynovla görüşdük. Zabit xidmətin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi. "Havanın sərt keçməsi, yağışlı, dumanlı olması əsgərlərin xidmətinə heç bir maneçilik törətmir. Əksinə, onlar xidmətə ikiqat məsuliyyətlə yanaşır, gecəgündüz döyüş mövqelərində düşməni müşahidə edirlər. Hazırda bölmələrimiz ən müasir silah və sursatlarla tam təchiz edilib. Bu, qarşımıza qoyulan tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir. Havanın soyuq və sərt keçdiyi bu bölgədə şəxsi heyətin xidməti düzgün təşkil etməsi üçün yüksək diqqət və qayğı göstərilir. Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov ön xətdə yerləşən bölmələrimizdən birində oldu. Əsgərlərimizlə görüşüb onların sosial-məişət şəraiti ilə maraqlandı. Təbii ki, yuxarı rəhbərliyin şəxsi heyətlə mütəmadi maraqlanması orduya olan diqqət və qayğının bariz nümunəsidir."

Zabitlə söhbətdən sonra vaxt itirmədən digər bölməyə yola düşürük. Yolların dumanlı və yağışlı, çınqıllı və kələ-kötürlü olmasına baxmayaraq, sürücünün təcrübəsi hesabına ünvana rahatlıqla çatırıq.

Şəxsi heyət topların ətrafında düzülüb dərs keçirdi. Onlar taqım komandirinin nəzarəti altında 122 mm-lik D-30 haubitsa topunu "Döyüşə" və "Səfərə" vəziyyətinə gətirirdilər. Şəxsi heyətlə tanış oluruq. İlk həmsöhbətim leytenant Rüfət Həsənov bu il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriya ixtisası üzrə bitirərək ordu sıralarına xidmətə göndərilib. Naxçıvan şəhərindən olan gənc zabitimiz təhsil ocağında öyrəndiklərini bu gün tabeliyində olanlarla bölüşməklə yanaşı, əsgərlərin praktiki vərdişlərini artırmaq üçün daim çalışır. O qeyd etdi ki, bu gün Azərbaycan Ordusunda artilleriya bölmələri istənilən tapşırığı yerinə yetirməyə hazırdır.



- Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını artilleriya qoşunlarında da hər gün hiss edirik. Yuxarı komandanlığın təsdiq etdiyi döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyətə gündüz və gecə dərsləri keçirilir. Əsgərlərimiz artıq toplardan təyinatı üzrə istifadə etməyi bacarırlar. Hamıya məlumdur ki, biz təkcə dərslərlə kifayətlənmirik. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, artilleriya bölmələrinin praktiki təlimləri də yüksək səviyyədə keçirilir. Bunlar bir daha sübut edir ki, ordumuz hər an Ali Baş Komandanın əmri ilə düşmənin istənilən hədəfini məhv etməyə və işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir.

Zabitlə söhbətdən sonra top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İbrahim Vəliyevlə kəlmələşirik. Öyrənirəm ki, Gəncə şəhərindən olan İbrahim artıq 8 ildir xidmət edir. Əsgəri xidmətini başa vurduqdan sonra o, ordu sıralarına yenidən qayıtmaq qərarına gəlib. Bu gün artıq peşəkar top komandiridir. "Çox sevinirəm ki, ön xətdə mərd əsgərlərlə və peşəkar zabitlərlə xidmət edirəm. Burada kollektivimiz bir-biri ilə çox mehribandır. Tabeliyimizdəkilər isə dərsə yüksək maraq göstərirlər. Bütün heyət istənilən an "Həyəcan" siqnalı ilə mövqeyini tutmağa, verilən tapşırığa uyğun vəzifəsini icra edərək topu qısa zamanda "Döyüşə" vəziyyətinə gətirib nəzərdə tutulan düşmən hədəfini məhv etməyə tam hazırdır."

Növbəti müsahibim əsgər İsmayıl İsmayıllıdır. Xidmətinin əsas hissəsini başa vuran əsgərimiz Bərdə rayonundan hərbi xidmətə çağırılıb. O bildirdi ki, qazandığı biliklərə görə komandir heyətinə borcludur. "Hava şəraitinin necə keçməsindən asılı olmayaraq, zabitlərimiz döyüş hazırlığımızın yüksək olması, biliklərimizin artırılması üçün daim məşğələlər keçirlər. Onların sayəsində bu gün bölməmizdə olan artilleriya silahlarının hansı döyüş qabiliyyətinə malik olduğunu bilirik. Qazandığımız biliklər bizə imkan verir ki, gələcək döyüşlərdə düşmənin istər aşkarda, istərsə də sığınacaqda yerləşən bölmələrini məhv edək."

Heyət nəfəri əsgər Rəşad Rüstəmli isə keçirilən dərslərin gələcəkdə öz effektini göstərəcəyini vurğuladı. "Havanın soyuq və yağışlı olmasına baxmayaraq, dərslərimiz yüksək səviyyədə keçir. Artıq bizlər artilleriya qurğusunun taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə etməyi, müşahidə cihazı vasitəsilə məsafənin təyinini, hədəfi nişan almağı və digər məlumatları öyrənmişik. Qazandığımız uğurlara görə komandir heyətimizə borcluyuq. Gündəlik keçirilən dərslərin nəticəsini isə döyüş meydanında düşmən üzərində qazandığımız qələbəylə sübut edəcəyik. Biz hər an düşmənə ağır zərbələr endirməyə və işğal altındakı torpaqlarımızı azad etməyə hazırıq."

Əsgərlər Soltan Qəribov, Ağasəf Şahməmmədov, Eltun Əliyev də bu gün dərslərdə öyrəndiklərini sabahkı döyüşlərdə icra etməyə hazır olduqlarını bildirdilər.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Helsinki Vətəndaş Assambleyasının Yerevan Ofisi Ermənistan ordusunda intihar hallarının artması ilə bağlı hesabat yayıb

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, hesabatda "məxməri inqilabdan" əvvəl olduğu kimi, hazırda da Ermənistanın hərbi hissələrində ağır vəziyyətin hökm sürdüyü bildirilir. Qeyd edilir ki, müxtəlif hərbi birləşmələrdə "dedovşina" halları artıb. Əsgərlər zorakılığa məruz qalırlar.

Ermənistan mətbuatında dərc olunan yazılara görə, üzləşdiyi dərin iqtisadi böhrandan çıxış yolu tapa bilməyən ölkə hərbi sahədə də iflasa uğrayıb. Belə ki, erməni əsgərlər arasında sui-qəsd hallarının sayı artıb.

Erməni KİV-lərinin Helsinki Vətəndaş Assambleyasının Yerevan Ofisinin hesabatına istinadla yaydığı məlumatlarda bildirilir ki, son insident zamanı Qarabağda hərbi qulluqçu Gevorq Aroyan öldürülüb. Ailəsi iddia edir ki, əsgəri zorakılıqla qətlə yetiriblər. Hərbi prokurorluğun məlumatında bildirilir ki, iyulun 28-də hərbi xidmətə çağırılan Aroyan odlu silahdan özünə atəş açıb. Valideynlərinin sözlərinə görə, övladları ilə sonuncu görüş zamanı onun gözlərinin altında döyülmə izlərini görüblər. Aroyan valideynlərinə əsgərlərin hər işə məcbur edildiyini bildirib.

Hərbi qulluqçunun ailəsi iddia edir ki, Aroyan heç vaxt özünə qəsd etməzdi, onu öldürüblər.

Erməni mətbuatı, həmçinin yazır ki, Ermənistanda siyasi vəziyyət də sabit deyil. Siyasi şərhçilər hesab edirlər ki, Paşinyanın vəziyyəti o qədər də qənaətbəxş deyil.

AZƏRBAYCAN ORDUSU

Ordu quruculuğu

# “Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir”



*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu ordu dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində döyüş hazırlığına görə dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşıb.*

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində nəzərdə tutulan uğurlara nail olunub. Əldə edilən uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi, hərbi potensialımızın yüksəldilməsi nəticəsində mümkün olub: "Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik... Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib."

Son illərdə davamlı olaraq güclənən və regionun ən qüdrətli ordusuna çevrilən Azərbaycan Ordusu inkişaf baxımından 2018-ci ildə də parlaq göstəricilərlə əlamətdardır. Faktlar və rəqəmlər göstərir ki, Azərbaycan bu il siyasi, iqtisadi, sosial, beynəlxalq münasibətlər kimi vacib istiqamətlərlə yanaşı, ordu quruculuğu və onun gücləndirilməsi sahəsində böyük nailiyyətlər qazanıb.

Azərbaycan Ordusunun qüdrətini son illərdəki hərbi əməliyyatlar da sübut edir. Ermənistan tərəfinin təxribatlarının qarşısı uğurlu əks-hücum əməliyyatları ilə alınır. Bu isə o deməkdir ki, ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir.

Silahlı Qüvvələrin 100 illiyi ilə bağlı keçirilən hərbi parad da ordunun yüksək döyüş qabiliyyətini və vətənpərvərlik əhval-ruhiyyəsini sübut etdi.

Son beş ildə hərbi potensialımızın təkmilləşdirilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu adını dünya miqyasında güclülər sırasına daxil edib. Beynəlxalq hərbi ekspertlərin də etiraf etdikləri kimi, müdafiə qüdrəti artan Azərbaycan Ordusunun reytinqinin yüksək səviyyədə olmasını aprel döyüşləri və Günnüt zəfəri də təsdiqlədi.



2018-ci ildə Azərbaycan Ordusunda yeniləşməyə yol açan sürətli dəyişikliklər və komplektləşdirmə işləri həyata keçirildi. Diqqət cəlb edən məqamlardan biri də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mütəmadi olaraq cəbhə bölgələrində hərbi hissələrin şəraiti, əsgərlərin döyüş hazırlığı ilə yerində tanış olması, tapşırıq və tövsiyələr verməsidir. Mütəmadi keçirilən bu səfərlərin nəticəsi olaraq cəbhə zonasında döyüş tapşırığı icra edən hərbi hissələrin məişət şəraiti daha da yaxşılaşdırıldı, eyni zamanda şəxsi heyət məişət xarakterli işlərdən tamamilə azad edildi.

Son illər ərzində Azərbaycan Ordusunda keçirilən irimiqyaslı təlimlər diqqət çəkdi və ölkənin müdafiə qüdrəti barədə layiqincə yüksək təəssürat yaratdı. Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyət və təminatın təşkili, döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların icrasının yoxlanılması məqsədilə keçirilən təlimlərə böyük sayda şəxsi heyət, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnikalar cəlb edildi.

Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Ölkəmizin son illərdə dinamik iqtisadi inkişafı və nəticə etibarilə ordumuzun güclənməsi ölkə başçısının fəaliyyətinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Son illərdə dost və digər dövlətlərin hərbi təhsil sistemi ilə tanışlıq, təcrübə mübadiləsi məqsədilə Müdafiə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyətlərinin aparıcı dünya ölkələrinə səfərləri olub. Plana uyğun olaraq, hərbi təhsil müəssisələrinin professor və müəllim heyəti həmin dövlətlərin hərbi təhsil müəssisələrinin nümayəndələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparıb.

Bu gün qarşıda duran əsas vəzifələrdən biri Azərbaycan Ordusunun daha da modernləşməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir. 2018-ci ildə keçirilən möhtəşəm paradlar Azərbaycan Ordusunun həm güc və qüdrətini, həm də modernləşdiyini nümayiş etdirdi. Bu paradlar həm də xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramın təntənəsi idi. Hal-hazırda Azərbaycan Ordusunun qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an



azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının qətiyyətlə davam etdirilməsi deməkdir.

Son beş ildə, həmçinin yeni hərbi hissələr inşa edilib, şəxsi heyət üçün hər cür şərait yaradılıb. NATO standartlarına müvafiq hərbi hissələrdə xidmət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə də təsir göstərib.

Hərbi xidmətin nüfuzunun artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi də irimiqyaslı islahatlar çərçivəsində təqdirəlayiq işlərdən hesab olunur. Müdafiə Nazirliyi ölkənin əsas güc strukturlarından biri kimi bu sahədə bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlayıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırıb və onları müvafiq instansiyalara təqdim edib.

Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə belə asanlıqla qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq həyata keçirilən bütün tədbirlər Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaradıb.

Hərbi məqsədlər üçün xərclərin artımı hərbçilərin sosial vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Azərbaycan Ordusuna ictimai nəzarət üçün yüksək səviyyədə şəraitin yaradılması isə ordu rəhbərliyinin ordu-cəmiyyət əlaqələrinə xüsusi önəm verməsindən xəbər verir. "Açıq qapı" günlərinin müntəzəm keçirilməsi bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanın hərbi sənaye kompleksi də artıq yetərincə formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Bu baxımdan ölkəmizdə keçirilən "ADEX" Beynəlxalq müdafiə sərgisi də xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin məntiqi nəticəsi, Azərbaycanın iqtisadi tərəqqisinin göstəricisidir. Xüsusi qeyd etmək lazımdır ki, Müdafiə Nazirliyinin rəhbərliyi ordumuzun ölkəmizdə istehsal olunan silah-sursatla təchizatını daim diqqətdə saxlayır. Müdafiə Nazirliyinin rəhbərliyi ordumuzun NATO ilə uğurlu əməkdaşlığına da xüsusi diqqət ayırır. Bu da Azərbaycan Ordusunun modernləşməsinə və NATO standartlarına uyğunlaşdırılmasına mühüm töhfələr verir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin orduda islahatların davam etdirilməsini, ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsini, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasını prioritet vəzifələr kimi müəyyənləşdirməsi hərbi qüdrətimizin əsasında dayanır. Bütün bunlar isə Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan Ordusu ən şərəfli missiyanın - torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müqəddəs vəzifənin öhdəsindən gəlməyə hər an hazırdır.

**"Azərbaycan Ordusu"**

# Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri

Polkovnik Telman ŞAHBAZOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının
Strateji Araşdırmalar və Dövlət Müdafiəsini
İdarəetmə Akademik Kursunun rəisi



100 ildən artıqdır ki, Azərbaycan dövlətçiliyinə və xalqına qarşı ermənilər tərəfindən törədilən beynəlxalq cinayətlər hazırda da davam etdirilir.

"1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli Sərəncamında qeyd edilir ki, erməni millətçiləri tərəfindən tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasının gerçəkləşdirilməsi məqsədi ilə on minlərlə azərbaycanlı məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir.

Azərbaycan bəşər sivilizasiyasının meydana gəldiyi ərazilərdən biridir. Arxeoloji qazıntıların nəticələri də göstərib ki, bu yerlərdə yaşamış insanlar tarix boyu çoxsaylı abidələr yaradıb. Dünya və Şərq memarlığının ən gözəl incilərindən olan bu abidələrin əksəriyyəti bu günə kimi qorunub saxlanılır. Azərbaycan dövləti öz daxili siyasətində bütün abidələrin, tarixi irs örnəklərinin qorunması və mühafizəsi istiqamətində ən yüksək səviyyədə tədbirlər həyata keçirir. Təəssüf ki, bu işləri ölkəmizin bütün ərazilərində aparmaq mümkün deyil. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində orada İslam mədəniyyətinə aid olan bütün muzeylər, məscidlər, abidələr dağıdılıb. Təkcə İslam mədəniyyətinə aid abidələr deyil, digər abidələr də məhv edilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal-hazırda hərbi məqsədlər üçün istifadə edilərək qəsdən dağıdılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilir.

Beş minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və Xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları da dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası da bu gün işğal altındadır. 1968-ci ildə həmin mağarada Məmmədəli Hüseynovun rəhbərliyi altında keçirilən arxeoloji qazıntılar zamanı "preneandertalise" məxsus olan aşağı çənənin fraqmenti tapılmış, bununla da dünya arxeoloji tarixinə unikal və əhəmiyyətli eksponat kimi daxil olmuşdur. Bu gün isə işğal altında olan Azıx mağarasında ermənilər tərəfindən bütün beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq arxeoloji qazıntılar həyata keçirilməkdədir. Həmin qazıntılarda beynəlxalq ekspertlər də iştirak edirlər.

İşğalçılar genişmiqyaslı arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar.

Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır. Bunlarla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103200 ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitafon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal olunmuş ərazilərdə qalmışdır.

Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerlə-yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınmışdır.

Şuşanın işğal edilməsi nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, Azərbaycan professional musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), Azərbaycan vokal sənətinin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın (100-dən çox əşya) xatirə muzeylərinin, Ağdam tarix-diyarşünaslıq muzeyinin (2 mindən çox əşya), Qubadlı tarix-diyarşünaslıq muzeyinin (3 mindən çox əşya), Zəngilan tarix-diyarşünaslıq muzeyinin (6 minədək əşya) fondları qarət edilmişdir.

Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılmışdır. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur. Şuşa, Laçın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət



fondları da dağıdılmışdır.

Erməni təcavüzkarları Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəyovun və Bülbülün, habelə şairə Xurşud Banu Natavanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışlar. Bu abidələr bütün mənəviyyat normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika vasitəsilə zədələnmişdir. Həmin abidələr çox çətinliklə əldə edilərək Bakıya gətirilmiş və hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir.

Şuşa şəhəri ətrafındakı bürünc dövrünə aid yüzlərlə məzarda arxeoloji qazıntılar aparmaqla beynəlxalq hüquq normalarına saymazyana münasibət nümayiş etdirilir. Ermənilər zəbt olunmuş Azərbaycan ərazilərində soydaşlarımızın məzarlarını, mərmər daşları, qəbirüstü abidələri qarət edirlər. İşğal zonasındakı meşələr talan olunur. Təbiətin incisi sayılan çinarlıqlar məhv edilir, bu ağaclar kütləvi şəkildə doğranıb aparılır.

Beləliklə, Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərər çox böyükdür. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı ölkədə ağır humanitar böhran vəziyyətinin yaranması, çoxsaylı sosial-iqtisadi obyektlərin məhv edilməsi və ölkə iqtisadiyyatına ciddi ziyanların vurulması ilə yanaşı, Azərbaycan xalqının tarixi, maddi mədəniyyət abidələrinə də ağır zərər vurulmuşdur. Əfsuslar olsun ki, bu abidələrin dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktiki olaraq mümkün deyildir. Belə ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələri idi.

Bu dəhşətli faktları nəzərə alaraq, mədəni hüquqların və bütövlükdə mədəni irsin qorunması ölkəmizdə xüsusi əhəmiyyət kəsb edən sahələrdəndir. Belə ki, Azərbaycan Respublikası 1954-cü ildə Haaqa Konvensiyasına Birinci Protokola 1993-cü ildə və 2000-ci ildə İkinci Protokola qoşulub. Bu konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Eyni zamanda, konvensiyanın iştirakçıları özlərinin qanunvericiliyində elə qanunlar qəbul etməlidir ki, bu konvensiya onun şərtlərini pozan və pozmağa göstəriş verənləri cəzalandıra bilsin.

Milli qanunvericiliyə gəldikdə isə, Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların vəzifələrinin sırasında tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı müddəaların olması, "Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur" ifadəsinin öz əksini tapması mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. 16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən adları çəkilən konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır. 10 aprel 1998-ci il tarixdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Bu qanun tarix və mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonun zəbt edilməsi, milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır, Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurur.

Ermənistanın silahlı təcavüzü və 20 faiz Azərbaycan ərazisinin işğalı nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olmuş, güllə və qəlpə yaraları nəticəsində müxtəlif dərəcəli əlilə çevrilmiş və şikəst olmuşdur. Bununla yanaşı, təcavüz nəticəsində yüz minlərlə vətəndaş doğma yurdundan didərgin düşərək öz hüquq və azadlıqlarından məhrum edilmiş, məcburi köçkün halına düşmüş, ölkədə fövqəladə humanitar vəziyyət yaranmış, minlərlə azərbaycanlı indiyədək hələ də itkin düşmüş hesab edilir. Təcavüzün nəticələri heç bir Azərbaycan ailəsindən təsirsiz ötüşməmiş, demək olar ki, hər bir Azərbaycan ailəsinin üzvü Dağlıq Qarabağ müharibəsinin qurbanına çevrilmişdir. Belə bir şəraitdə, ölkədə yaranmış psixoloji və mənəvi durumu hər hansı bir meyar ilə qiymətləndirmək qeyri-mümkündür.

(Ardı 6-cı səhifədə)

# Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri

(Əvvəli 5-ci səhifədə)

1988-ci ildən bəri Ermənistanın silahlı birləşmələri tərəfindən Azərbaycana qarşı törədilən soyqırımları, cinayətlər və deportasiyalar ilə bağlı Respublika Prokurorluğunda 3 istiqamətdə istintaq aparılır:

1. Xocalı, Meşəli, Qaradağlı və s. yaşayış məntəqələrində azərbaycanlılara qarşı törədilmiş cinayət əməlləri araşdırılır.

2. Ermənilər tərəfindən nəqliyyat vasitələrində, metrolarda və müxtəlif yerlərdə törədilmiş terror aktları ilə bağlı cinayət əməlləri araşdırılır.

3. Əsir və girov götürülmüş insanlara qarşı törədilmiş cinayətlər araşdırılır.

Bu günə qədər sülh və insanlıq əleyhinə, müharibə cinayətlərini törətmiş şəxslərdən Xocalı soyqırımı üzrə 39, Qaradağlı soyqırımı üzrə 12, Bağanis-Ayrım soyqırımı üzrə 12, Meşəli soyqırımı üzrə 9, Kərkicahan soyqırımı üzrə 47, işgəncə faktları üzrə 35, terrorçuluq faktı üzrə 3 nəfər, ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adam öldürmə və digər cinayətlər törətmiş 133 nəfər, ümumilikdə isə 296 şəxsin Azərbaycan cinayət məcəlləsinin 103-cü (soyqırımı), 107-ci (deportasiya), 113-cü (işgəncə), 115-ci (müharibə qanunlarını və adətlərini pozma), 116-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar normaları pozma) maddələrində nəzərdə tutulan cinayətləri sübuta yetirilmiş və onlar barəsində təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilmələrinə dair qərarlar qəbul edilmişdir. Onlar barəsində həbs qəti imkan tədbiri seçilmiş, axtarışların təmin edilməsindən ötrü müvafiq sənədlər interpolun Azərbaycan milli bürosuna və Daxili İşlər nazirinə təqdim edilmişdir.

Ermənistanın işğal olunmuş ərazilərdə törətdiyi ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir. Silahlı təcavüzün başlanmasından keçən müddət ərzində işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində regionun təbii sərvətləri də talan edilmiş, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədilmiş, regionun flora və faunasına, bölgənin ekoloji durumuna bərpa edilə bilməyəcək zərər vurulmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İşçi Qrupunun 2014-cü ilin əvvəlindən başladığı fəaliyyətin nəticəsi olaraq hazırlanan hesabat ermənilərin işğal etdiyi ərazilərimizdə ölkəmizə dəyən maddi-mənəvi ziyanın dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara çatdırılması üçün sübutdur. Hesabatda ətraf mühit, təbii sərvətlər, onların qiymətləndirilməsi üsulları, beynəlxalq hüquqda vurulmuş zərərlərin ödənilməsinin hüquqi şərtləri, zərər və itkilərin qiymətləndirilməsinin metodoloji əsasları haqqında aparılan araşdırmalar dəyən zərərin obyektiv, elmi əsaslarla qiymətləndirilməsinə dəlalət edir. Altı əsas sahə - faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin



məhv edilməsi, torpaqların sıradan çıxardılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərlər, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərlər qiymətləndirilmiş, 22 illik işğal dövrünü əhatə etməklə ümumilikdə Azərbaycana dəyən ziyan 285 milyard dollar çərçivəsində qiymətləndirilmişdir.

Azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunmuş elmi-praktik konfransda Hərbi Prokurorluğun Xüsusi İstintaq şöbəsinin rəisi Emil Tağıyev demişdir: Ermənistanın işğalı nəticəsində Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş maddi zərərin məbləğinin beynəlxalq standartlara əsasən müəyyən edilməsi məqsədilə aparılmış kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına görə dəymiş maddi ziyan 818 milyard 880 milyon ABŞ dolları təşkil edir.

Ermənistanın silahlı tacavüzü və işğalı nəticəsində Azərbaycana külli miqdarda maddi və mənəvi zərər dəymişdir. Bu zərərin miqdarının dəqiqləşdirilməsi və onun ödənilməsi probleminin həll edilməsi bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin mühüm aspektlərindən biridir.

Belə ki, beynəlxalq hüquqa görə məsuliyyət daşıyan dövlət özünün hüquqazidd əməli ilə digər dövlətə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir.

Qeyd edilməlidir ki, müasir beynəlxalq hüquqda zərərin ödənilməsinin müəyyən formaları mövcuddur. Bu formalar bir tərəfdən zərərin tam ödənilməsi vəzifəsini, digər tərəfdən isə belə ödəmənin həyata keçirilməsi üsullarını əks etdirir. Bu məsələlər tam aydınlığı ilə BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 5683 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində göstərilmişdir. Sənədin 28-ci maddəsində qeyd edilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnamənin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir. Sənədin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərə görə tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də bir-biri ilə bağlı istifadə edilə bilər".

Bu müddəa, eyni zamanda, BMT Baş Assambleyası tərəfindən 16 dekabr 2005-ci ildə qəbul edilmiş 60147 saylı "Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəalar" adlı qətnamə ilə bir daha təsdiq olunmuşdur. Bu qətnamənin "Vurulmuş zərərin ödənilməsi" adlı IX fəslinin 18-ci bəndində göstərilir ki, beynəlxalq hüquqa və ölkələrin milli qanunvericiliyinə görə, həm də konkret halları nəzərə alaraq, insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının və beynəlxalq humanitar hüququn ciddi pozuntularının qurbanlarına və pozuntunun ciddiliyinə və hər bir hala müvafiq müəyyən olunmuş qaydada zərərin tam və effektiv ödənilməsi restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və baş vermiş hadisənin təkrarlanmaması zəmanəti formalarında ola bilar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın hüquqazidd əməli nəticəsində Azərbaycana vurulmuş zərərin restitusiya formasında ödənilməsi bütün işğal olunmuş Azərbaycan ərazilərinin qaytarılması, əsirlikdə saxlanılan azərbaycanlıların azad edilməsi, onların insan hüquqlarından istifadə edə bilməsi, məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıda bilməsi, əmlakının qaytarılması və s. deməkdir. Bundan əlavə, restitusiya Ermənistan tərəfinin Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsi ilə bağlı Ali Sovetin qəbul etdiyi qərarın, Ermənistanın dövlət müstəqilliyi aktında Dağlıq Qarabağın bu dövlətin ərazisi elan edilməsi və digər qanunsuz qəbul edilmiş bütün normativ aktlarının ləğv edilməsini də özündə ehtiva edir. Eyni zamanda, işğal edilmiş Azərbaycan torpaqlarında işğalçı Ermənistan tərəfi ilə bağlanmış müqavilələr əsasında xarici şirkətlərin təsərrüfat fəaliyyəti ilə məşğul olunmasına qadağan qoyulması restitusiya çərçivəsində həyata keçirilən tədbirlərdən olmalıdır.

Kompensasiya beynəlxalq hüquqazidd əməl nəticəsində vurulmuş zərərin maliyyə şəklində ödənilmə formasıdır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə əlavənin 36-cı maddəsinə əsasən, beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərəri restitusiya ilə ödənilməyən hissədə kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya əldən verilmiş gəlir də daxil olmaqla, belə zərərin ödənilməsinə yönəlib. Beləliklə, kompensasiya vurulmuş zərərin restitusiya ilə ödənilmədiyi halda tətbiq edilə bilər. Kompensasiya maliyyə baxımından qiymətləndirilə bilən hər bir zərəri, o cümlədən müəyyən edilə bilən əldən verilmiş mənfəət də daxil olmaqla, ödəmə formasıdır. O, vurulmuş zərərə görə tam ödəməni təmin etməyə yönəlməlidir və beynəlxalq praktikada zərərin ən çox rast gəlinən ödənilmə formasıdır. Bu müddəa müəyyən edir ki, kompensasiyanın miqdarı əmlaka zərərin vurulduğu vaxtdakı dəyəri deyil, onun kompensasiya ödənilməsi vaxtında olan qiyməti miqdarında ödənilməlidir.

Beləliklə, Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsi problemi Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılmasının və bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin vacib aspektlərindən biridir.

Azərbaycan ərazisinin 20 faizinin işğal altında olmasına, bir milyondan çox azərbaycanlının öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkün statusunda qalmasına baxmayaraq, Azərbaycan dövləti iradə nümayiş etdirərək münaqişəni humanizm prinsipləri və beynəlxalq hüquq normaları çərçivəsində həll etməyə çalışır. BMT Baş Assambleyasının 49-cu sessiyasında 29 sentyabr 1994-cü il tarixdə çıxış edərkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik".

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət təcavüzkar Ermənistanı bir daha işğalçılıq hərəkətlərinə son qoymağa və münaqişəni dinc yolla həll etməyə dəvət edir. Lakin beynəlxalq təşkilatlar qarşısında bu proses daim təcavüzkar Ermənistan tərəfindən pozulur ki, bu da işğalçı dövlət kimi Ermənistanın qeyri-konstruktiv siyasətinə və hələ də beynəlxalq hüquqa heç bir məhəl qoymayaraq bu siyasətini davam etdirməsinə tam dəlalət edir. Prezident İlham Əliyev 17 oktyabr 2016-cı il tarixdə "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində xüsusi olaraq vurğulamışdır: "Əgər tarixi götürsək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həmişə belə olub. Biz erməni əhalinin İrandan, Şərqi Anadoludan bu torpaqlara kütləvi şəkildə köçürülməsinin tarixini bilirik. Bütün tarix, bütün toponimlər, o cümlədən Qarabağ sözünün özü də Azərbaycan mənşəlidir... Azərbaycanlıları əvvəlcə Dağlıq Qarabağdan qovdular. Sonra Azərbaycanın Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan yeddi rayonunu işğal etdilər, həmin rayonlarda yalnız azərbaycanlı əhali yaşayırdı, orada hər şey dağıdıldı. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərdi, onların hesabatı lap dəhşətlidir: orada bircə bina da salamat qalmayıb, qəbiristanlıqlar, məscidlər hamısı yerləyeksan edilib... BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində erməni işğalçı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması tələb edilir. Lakin 20 ildən çoxdur ki, bu qətnamələr icra edilmir... Münaqişənin nəyə görə nizamlanmamasının əsas səbəbi odur ki, Ermənistan artıq 24 ildir, Minsk qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa irəliləməsinə müxtəlif yollarla mane olur.... Biz regionda sülh istəyirik və bizim mövqeyimiz kifayət qədər konstruktivdir. Lakin biz öz ərazilərimizi istəyirik. Ermənistan sülh istəyir, amma o, özgə ərazilərini qaytarmaq istəmir .... Azərbaycanın ərazi bütövlüyü məsələsində kompromis ola bilməz..."

2016-cı il aprelin əvvəllərində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla həlak olan şəhidlərimizin anaları ilə aprelin 7-də görüşü zamanı Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva demişdir: "Azərbaycan dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün artıq 20 ildən çoxdur ki, bütün səylərini göstərir. Biz istəyirik ki, torpaqlarımız azad edilsin. Biz istəyirik ki, insanlarımız öz doğma yurdlarına qayıtsın. Biz işğalçı deyilik. Biz işğalçı ilə mübarizə aparan millətik. Bizim heç bir başqa millətin, başqa xalqın torpağında gözümüz yoxdur. Biz sadəcə öz torpaqlarımızı işğaldan azad etmək istəyirik. Bu həqiqəti bütün dünya bilir və artıq qəbul etməlidir.... Mən əminəm ki, ədalət bərpa olunacaq. Azərbaycan torpaqları işğaldan azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bütün qaçqınlarımız, məcburi köçkünlərimiz öz doğma torpaqlarına qayıdacaqlar".

# Bölmələrin qış mövsümünə hazırlığı yoxlanılır

*Müdafiə nazirinin təsdiq etdiyi illik plana əsasən, Maddi-Texniki Təminat Baş İdarəsinin bir qrup zabiti cəbhəboyu zonada hündür dağlıq ərazi və sərt iqlim şəraitində yerləşən bölmələrdə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Maddi-Texniki Təminat Baş İdarəsi rəisinin müavini - MTT qərargahının rəisi polkovnik Qədir Nəsibovun rəhbərlik etdiyi qrup bölmələrin qışa hazırlığı işinin keyfiyyətini, şəxsi heyətin qış mövsümü normalarına uyğun təminatı və təchizatını yoxlayıb.

Şəxsi heyətlə görüşlərdə müvafiq xidmətin daha keyfiyyətli təşkili ilə bağlı Müdafiə nazirinin tələb və göstərişləri vəzifəli şəxslərə çatdırılıb, metodiki məşğələlər keçirilib.



# Uğurlarımız təsadüfi deyil

*Bu günlərdə Azərbaycan Səmti Müəyyənetmə İdman Federasiyasının Gənclər və İdman Nazirliyi ilə birlikdə təşkil etdiyi, Nabranın meşə zolaqlarında keçirilən səmti müəyyənetmə idman növü üzrə növbəti açıq respublika çempionatına yekun vurulub. İki gün davam edən yarışda nazirlik, idarə, təşkilat və güc strukturlarını, klub və federasiyaları, idman cəmiyyətlərini, ali təhsil müəssisələrini təmsil edən 150-dən çox idmançı müxtəlif məsafələr üzrə yarışlarda qüvvələrini sınayıb. İdmançılar komanda və şəxsi birincilik üzrə öz bacarıqlarını nümayiş etdiriblər. Çempionat elektron qeydiyyat sisteminin tətbiqi ilə keçirilib.*



Yarışda idman xəritəçiliyi sahəsində tanınmış xarici mütəxəssislər tərəfindən çəkilmiş beynəlxalq standartlara uyğun idman xəritələrindən istifadə olunub. Gərgin keçən mübarizədən sonra həm komanda hesabında, həm də fərdi yarışlarda qaliblərin adları müəyyənləşib. Müdafiə Nazirliyinin komandası çempionatda üçüncü yerə layiq görülüb. Qızlar arasında fərdi yarışlarda isə xanım təmsilçilərimiz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Məryəm Ziyatxanova və əsgər Şəfəq Quliyeva qızıl medal qazanıblar.

Respublika çempionatında komandamızı layiqli şəkildə təmsil edən qalib idmançılarımızla oxucularımızı tanış edirik.

İlk həmsöhbətim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məryəm Ziyatxanovadır. Məryəm Cəbrayıl rayonunda anadan olub. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetini bitirib. İlk öncə onu qazandığı uğur münasibətilə təbrik edirəm və düşüncələrini öyrənirəm. "Əlbəttə, həyatda heç bir uğur asanlıqla qazanılmır. Əgər qarşına məqsəd qoymusansa, ona çatmaq üçün gərək əlindən gələni edəsən. Dövlətimiz gəncliyin inkişafına böyük diqqət və qayğı göstərir. Hər bir gənc yaradılan bu əlverişli şəraitdən, qayğıdan faydalanmalı, Vətənimiz üçün layiqli vətəndaş olmalı, ölkəmizi onun sərhədlərindən kənarda da layiqincə təmsil etməlidir. İdmana marağım kiçik yaşlarımdan yaranıb. Arzum sağlam həyat tərzi keçirmək və bu yolda hər hansı nəticə yox, böyük uğurlar qazanmaq idi. İdmanda da böyük uğurlar qazanmaq üçün gərgin zəhmət tələb olunur. "Bir idmançı nə qədər çox idman növünə yiyələnsə, uğur qazanmaq şansı bir o qədər artar" prinsipi ilə idmanda ilk addımlarımı şahmat və qılıncoynatma ilə atmışam. Sonradan əlbəyaxa döyüş növlərinə üstünlük verdim. Hərb peşəsini seçdikdən sonra səmti müəyyənetmə idman növü ilə maraqlandım. Səmti müəyyənetmə idman növü topoqrafiya biliklərinə sahib olmaqda adama kömək edir, lazımi vərdişlər aşılayır. Həmçinin yaranmış vəziyyəti tez və dəqiq qiymətləndirməyi və fiziki yorğunluğa baxmayaraq, düşünmə qabiliyyətini tələb edir. Onu həm də "qaçışda şahmat" kimi də adlandırırlar", - əsgər M.Ziyatxanova deyir.

Məryəmin sözlərindən bir daha əminlik yaranır ki, o, seçdiyi peşəyə ürəkdən bağlıdır. İşini həm sevir, həm də vəzifələrinin öhdəsindən müvəffəqiyyətlə gəlməyi bacarır. Söhbətinə davam edən müsahibim yarışların gedişindən danışır:

- Çempionata gəlincə, çox ciddi hazırlıq prosesi keçmişdik. Uğurlarımız təsadüfi deyildi. Çünki təlim-məşqlərdə, yarışlarda iştirak edirdik. Son günə kimi həm fiziki, həm nəzəri, həm də psixoloji çalışmışdıq. Bir sözlə, bütün diqqətimizi bu çempionata yönəltmişdik. Sevinirəm ki, ümidləri doğruldaraq qızıl medal qazandım. Yarış heç vaxt həyəcansız ola bilməz. Eyni zamanda, məsuliyyətli idim. Xəritəyə və kompasa diqqətlə baxır, şərti işarələri araşdırır, təyin olunmuş ərazilərdə nəzarət məntəqələrini tapırdım. Çalışırdım ki, heç bir səhvə yol verməyim. Səmti müəyyənetmə yarışlarında cüzi diqqətsizlik belə uğursuzluqla nəticələnə bilər. Bir qədər həyəcan və narahatçılıq keçirtməyimə baxmayaraq göstərdiyim nəticə həyatımda xoş bir xatirəyə çevrildi. Finiş nöqtəsinə hamıdan birinci çatanda sevincimin həddi-hüdudu yox idi.



Qalib olacağıma inanırdım, və buna görə də məqsədimə çatdım. Lakin bu nəticə ilə arxayınlaşmaq olmaz. Əsas hədəfim beynəlxaq turnirlərdə ölkəmizi layiqincə təmsil etmək, dövlətlər arasında himnimizi səsləndirmək, üçrəngli bayrağımızı dalğalandırmaqdır. Ölkə çempionatında qızıl medal qazanmışamsa, deməli, istənilən yarışda mübarizə aparmağa qadirəm. Ən başlıcası özümə inanıram. Çünki inam qələbənin yarısıdır. Bizə yaradılan şəraitə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova, komandanlığa sonsuz təşəkkürümü bildirirəm.

Növbəti həmsöhbətim isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şəfəq Quliyevadır. Şəfəq Zəngilan rayonunda anadan olub. Dörd ilə yaxındır hərbi xidmətdədir. O da söhbətimizdə qələbə haqqında düşüncələrini bölüşdü:

- Belə yarışlar şübhəsiz ki, topoqrafiq biliklərimizi və düşünmə qabiliyyətimizi artırır. Hər şey çox sadədir. Səmtin müəyyən edilməsində ən əsas "alət" insan beynidir. Köməkçi alətlər isə kompas və xəritədir. Bunlar insan bilikləri ilə bütövləşir və təyin olunmuş cinaha doğru düzgün azimutla hərəkət etmək üçün zəmin yaradır. Bu zaman nəzəri biliklərimiz köməyimizə çatır. Yetərincə hazırlıqlı olmağımız zəmin yaratdı ki, biz bu yarışda qalib olaq. Düzdür, rəqiblərimiz də təcrübəli və güclü idi. Hərbçi olmağımız bizi digər yarışçılardan üstün edən bir xüsusiyyət idi. Yuxarı komandanlıq yarışlara yüksək səviyyədə hazırlaşmağımız üçün hər cür şərait yaratmışdı. Üzərimizə bir vəzifə düşürdü: qalib olmaq. Bizə olan etimadı doğrultduğumuz üçün çox sevincliyəm. Gərgin mübarizə şəraitində keçən yarışın sonunda qalib kimi təltif olunmaq da qürurverici idi. Həmin gün yaddaşıma silinməz izlərlə həkk olundu. Əsas amalımız isə Ali Baş Komandanımızın rəhbərliyi altında torpaqlarımızı işğaldan azad etməkdir. Biz də döyüş əmrinə hər an hazırıq. Əminik ki, tezliklə ordumuz Böyük Qələbəni qazanacaq.

Bu gün ordumuzda nümunəvi xidmətinə görə seçilən qadın hərbi qulluqçularımız çoxdur. Onlar öz xidmətləri ilə kişilərdən geri qalmırlar. Məryəm və Şəfəqin timsalında bütün qadın hərbi qulluqçularımıza xidmətlərində uğurlar arzulayırıq.



**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**



## Xalq şairi Məmməd Araz:

# Vətən əsgəri adını şərəflə daşımaq hər igid əsgərin ən ülvi arzusu olmalıdır

Tarixi faktlar göstərir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə soykökə və tarixə dönüş, milli ədəbiyyatın və mədəniyyətin dövlət səviyyəsində himayə olunması xalqın maraqlarına köklənmiş söz sənətinin meydanını daha da genişləndirmişdir. Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsmayıl Şıxlı və digər vətəndaş yazarların səmərəli fəaliyyəti Azərbaycan cəmiyyətində milli ədəbi-ictimai fikrin inkişafına güclü təkan vermiş, Azərbaycan ədəbiyyatında milli ruh və vətəndaşlıq mövqeyini gücləndirmişdir. Ədəbiyyatda başlanan və qüvvətlənən ümummilli ideyalar Azərbaycanda dövlət müstəqilliyinin bərpası ilə məqsədinə çatmışdır. Ədəbi prosesdə meydana çıxmış ciddi keyfiyyət dəyişikliyi ədəbi sözün missiyasını dəyişdirmiş, xalqın, insanın, gerçəkliyin əks etdirilməsində yeni münasibət, fərqli bədii düşüncə tərzi formalaşdırmağa başlamışdır. Ədəbiyyatda ana dili uğrunda mübarizə nəticə etibarı ilə ana Vətənin istiqlalı ideyasını əks etdirmişdir. 90-cı illərin əvvəllərində xalq şairi Məmməd Arazın "Qalx ayağa, Azərbaycan!" şeiri milli azadlıq himni kimi səslənmişdir.

*Azərbaycan - mayası nur, qayəsi nur ki..*
*Hər daşından alov dilli ox ola bilər*
*"Azərbaycan" deyiləndə ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər.*

Azərbaycanımızın ölməz xalq şairi Məmməd Arazın həyatı və yaradıcılığı yolu ilə yaxından tanış olduqca görürük ki, Məmməd Araz poeziyasının mayası vətənpərvərliklə yoğrulmuşdur.

"Vətən mənə oğul desə!" şeirindəki misralar öz Vətəninin layiqli övladı olmaq istəyən hər bir azərbaycanlının, Azərbaycan gəncinin ürək sözləridir.

*Vətən mənə oğul desə, nə dərdim!*
*Mamır olub qayasında bitərdim.*

Məmməd Arazın yaradıcılığı mərdanə bir poeziya kimi formalaşmışdır. Çünki Məmməd Arazı əhatə edən ana təbiətin saf və təmizliyi, ata ocağındakı halallıq şairin formalaşmasında mühüm rol oynamışdır. Bədii yaradıcılığındakı səmimiyyət və kövrəkliyin əsas mənbəyi uşaq yaşlarında şifahi xalq yaradıcılığındakı zəngin nümunələrlə daha çox maraqlanması olmuşdur.

Zəngin qəhrəmanlıq nəğmələrimiz, dastanlarımız şairi Vətəninin əsl vətəndaşı kimi yetişdirmişdir.

Ölməz şair Məmməd Araz yaradıcılığında Qarabağa həsr olunmuş məqalələr və şeirlər Qarabağ simfoniyası kimi qəlblərə hopur. Qarabağa dəfələrlə səfər etmiş, hər dəfə gəldikdə isə "sanıram ki, bura ilk dəfə gəlirəm", - söyləmişdir. Ahıl vaxtlarında, səhhətinin o qədər də əlverişli olmadığı zamanlarda belə Qarabağ döyüşlərində iştirak edən əsgərlərimizlə dəfələrlə görüşmüş, erməni işğalçılarına qarşı mübarizədən bəhs edən şeirləri ilə Vətən oğullarına mənəvi dayaq olmuşdur.

XX əsrin başdan-başa fərqli ideoloji sistemlərində yaşayıb-yaratmasına baxmayaraq, böyük şair Məmməd Araz ədəbiyyatda və ictimai həyatda həmişə azərbaycançılıq mövqeyinin müdafiəçisi olmuşdur. Şairin vətəndaşlıq poeziyası indiki müstəqillik mərhələsində də millət və milli dövlət yolunda döyüş səngərindədir. Dahi şairin şeirlərini oxuyan istənilən gəncin vətənpərvərlik ruhu yüksəlir və qələbəyə, o cümlədən torpaqlarımızın azad olunmasına inamı artır.

Yaxşı xatırlayıram, ölməz şairimiz bir neçə gün Murovdağ bölgəsinə səfər edərək soyuq səngərlərdə Vətənimizi qoruyan oğullarla görüşmüşdü. Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin təşkilatçılığı ilə həyata keçirilən bu səfər şairin yaddaşında dərin iz buraxır. Əsgərlərlə səmimi söhbət edən şair sonradan öz təəssüratlarında qeyd etmişdi ki, mən bu səfərdən bir əsgər əzmkarlığı ilə ayrıldım və burada xidmət edən hər kəsi bir qəhrəman sandım.

"Əsgər məktubu" şeirində şair təkcə ürəyinin səsini deyil, gənc əsgərin munis duyğularını, hiss və düşüncələrini də misralara köçürmüşdür. Çox təravətli və gözəl bir şeir olan "Əsgər məktubu" bir nəfəsə oxunur.

*Bir nəğmə əsgərin dodaqlarında,*
*Sərhəd küləyinə həmsöhbət olar.*
*Bir nəğmə əsgərin barmaqlarında,*
*Tətiyə söykənən cəsarət olar.*

Əsgərlərimiz yurdumuza, yurdumuz isə əsgərlərimizə söykənmişdir. Yurda söykəli olan əsgər nə edir? Əsgər babaların məzarını, ataların vüqarını, körpələrin yuxusunu qoruyur. Odlar yurdu olan yurdunun odunu, "Vətən ölməz", "Hünər ölməz" nidasını qoruyur. Əsgərlərimiz son qələbə həddinəcən geri dönməyəcəklər. Yurdumuz yağıları süpürüb atmayınca əsgərin nəfəsi od püskürəcək.

*Nakamların qəbri: Məşəl!*
*Qaliblərin qəlbi: Məşəl!*
*Məşəl! Məşəl!*
*Şah dağından qəlbi məşəl!...*




*Əsgər nə istəyir? -*
*Bir təzə nəğmə*
*Nəğməsiz darıxır əsgər tüfəngi.*
*Bir əsgər qəlbində qopan zümzümə*
*Bir Vətən daşını isidəcəkdir.*

"Əsgər məktubu" şeirindən götürülmüş bu bənd bugünkü əsgərin tərcümeyi-halının əsas hissəsidir. Danılmaz bir faktdır ki, Xalq şairi Məmməd Arazın əksər lirik şeirlərinin ana xəttini vətənpərvərlik, qəhrəmanlıq motivləri təşkil edir.

Əsgər oğullarımızın vətənpərvərliyi, igidliyi, doğma yurdun müdafiəsinə qalxmağa hər an hazır olmaları şairin yaradıcılığında qüvvətli əks-səda doğurmuş, qəhrəmanlıq himni kimi səslənən əsərlərin yaranmasına səbəb olmuşdur.

*Əsgər məktubunda torpaq göyərir,*
*Meşələr uzanır üfüqlərəcən.*
*Əsgər məktubunda bir dağ göyərir.*
*Ətək də Vətəndir, zirvə də Vətən.*

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllimləri olaraq həm Ana dili, həm də ədəbiyyat dərslərində yaradıcılığı başdan-başa bir salnamə olan Məmməd Arazın vətənpərvərlik ruhlu şeirlərindən tez-tez nümunə kimi istifadə edirik.

Bu nümunələr gələcəyin zabitlərini gələcəyə kökləyir, Ana Vətəni göz bəbəyi kimi qorumağa səsləyir.

Unudulmaz şairimiz Məmməd Arazın anadan olmasının 85 ili bu günlərdə tamam olur. Qafqaz Xalqları Elmlər Akademiyasının həqiqi üzvü Nizaməddin Şəmsizadənin təbirincə desək, "Tarix bizdən uzaqlaşdıqca, o bizə daha yaxınlaşacaq, daha əzəmətli görünəcək...". Öz növbəmizdə biz müəllimlər də böyük ədibi qürurla anmaqla onun qüdrətli yaradıcılıq yoluna bir daha nəzər salacaq, zəngin irsindən öyrənməyə çalışacağıq.

**Peykər HƏBİBOVA,**
**C.Naxçıvanski adına Hərbi Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi**

# İdman

## Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb

Oktyabrın 11-də futbol üzrə Azərbaycan yığması UEFA Millətlər Liqasının qrup mərhələsində ilk qələbəsini qazanıb.

D liqasında 3-cü qrupda yer alan Azərbaycan seçməsi səfərdə Farer Adaları yığması ilə qarşılaşıb.

Paytaxt Torshavndakı "Torsvollur" stadionunda keçirilən oyunun ilk hissəsində hesabı Azərbaycan millisi matçın 28-ci dəqiqəsində Riçard Almeydanın vurduğu qolla fərqlənib. Qarşılıqlı hücumlar şəraitində keçən oyunun ilk hissəsi millimizin minimal üstünlüyü ilə yekunlaşıb - 1:0.

Oyunun 67-ci dəqiqəsində Dmitri Nazarov baxımlı qola imza atıb. Qarşılaşmanın 87-ci dəqiqəsində Farer Adaları yığmasının qapısına təyin olunan on bir metrlik cərimə zərbəsini Riçard Almeyda dəqiq yerinə yetirərək dubl edib.

Beləliklə, görüş Azərbaycan yığmasının 3:0 hesablı qələbəsi ilə başa çatıb.

Komandamız növbəti görüşünü oktyabrın 14-də Bakıda Malta yığmasına qarşı keçirəcək.

## Azərbaycan gimnastı Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının çempionu olub



Azərbaycan gimnastı Yelizaveta Luzan Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının çempionu olub.

İdmançımız Olimpiya Oyunlarının yeni formatına əsasən, bütün gimnastika növləri üzrə qarışıq komandaların yarışında qızıl medal qazanıb.

Beləliklə, milli komandamızın aktivində 2 qızıl və 1 bürünc medal var. Bundan əvvəl cüdoçu Vüqar Talıbov (66 kq) qızıl, taekvondoçu Cavad Ağayev (63 kq) bürünc medal qazanıblar.

## Sərbəst güləşçilərimiz “Ugra Open”də yarışacaqlar

Oktyabrın 12-dən 14-dək Rusiyanın Nefteyuqansk şəhərində sərbəst güləş üzrə Vladimir Semyonovun mükafatı uğrunda "Ugra Open" turniri keçiriləcək.

Ənənəvi xarakter daşıyan yarışda yığmamızın məşqçisi Nazim Əlicanovun rəhbərliyi altında 7 idmançı - Əfqan Xaşalov (57 kq), Ruslan Qasımov (61 kq), Mahal Novruzov (70 kq), Ravil Babazadə, İbrahim Yusibov (hər ikisi 79 kq), Cavid Sadıqov (92 kq) və Roman Bəkirov (97 kq) mübarizə aparacaq.

Beynəlxalq dərəcəli hakim Sədi Quliyev turnirdə ədaləti qoruyacaq.

## Azərbaycanın U-19 millisi Kipr yığmasına qalib gəlib

Futbol üzrə 19 yaşadək qızlardan ibarət komandalar arasında Avropa çempionatının ilkin seçmə mərhələsində Azərbaycan yığması sonuncu oyununu keçirib.

Kiprli həmyaşıdları ilə qarşılaşan yığmamız 2:1 hesab ilə qələbə qazanıb.

Komandamızın heyətində Vüsalə Seyfəddinova və Nino Qurqenidze fərqləniblər.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya №361
Sifariş № 825
Nüsxə 3525